Тревогу в этой связи вызывает положение дел в аспирантуре. Аспирантура, как вы знаете, это тот путь, который должен позволить человеку в самых благоприятных условиях подготовить и защитить кандидатскую диссертацию. Но оказывается, за 1968 год должны были закончить аспирантуру и защитить кандидатскую диссертацию 481 человек, фактически защитили только 26 и представили кандидатские работы 160 человек. Между тем, в том же 1968 году в 2,45 раза больше было защищено диссертаций, минуя аспирантуру.

Товарищи, я вижу, все вы удивляетесь, и действительно это очень удивительно, когда дается такая, крайне уничтожающая оценка диссертациям, которые представляются на соискание ученых степеней. А куда смотрят руководители научных учреждений? Почему проявляют беспринципность, руководители институтов, вузов, академии и т.д., почему они допускают такие серьезные недостатки? Ведь в науке – то этого допускать нельзя, товарищи.

Отсюда какой вывод? Во-первых, вывод такой, что нужно коренным образов пересмотреть отношение к аспирантуре и к подготовке научных кадров и надо прекратить практику, когда в аспирантуру принимаются по признакам знакомства или родства сыновья или дочери руководящих или научных работников, не обладающие необходимыми данными.

Будем откровенны, что многие из этих товарищей сами диссертаций не пишут, а вовлекают в это дело целый ряд ученых из институтов. Эти ученые, обычно, подготавливая диссертации, имеют какие-то личные интересы, которые удовлетворяются, потому

что нужно, чтобы они готовили диссертацию. И все это, в конечном счете, приводит к разложению наших кадров.

Пусть у товарищей не складывается впечатления, что мы против науки. Нет, абсолютно нет. Мы за развитие науки, но за настоящее развитие науки.

Часто говорилось и сегодня говорится, что нефтяная промышленность у нас отстает. И действительно отстает, и позорно отстает, а руководители Министерства нефтяной промышленности успели защитить и кандидатские и докторские диссертации. Не лучше ли было бы, чтобы эти товарищи сосредоточили свое внимание, свое время целиком и полностью на разрешении исключительно больших и ответственных задач, стоящих перед нефтяной промышленностью, и тогда мы сегодня не говорили бы об этих недостатках.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublikanın digər sahələri kimi, iqdisadiyyatın da dirçəlişi, ölkənin təbii ehtiyatlarından, iqtisadi, təhsil, elm və digər potensialından xalqın maddi rifah halının yüksəlməsi üçün şəraitin yaradılması ilə xarakterizə olnur.

H.Əliyevin rəhbərliyi ilə qısa müddətdə respublikanın iqtisadi inkişafının konsepsiyası hazırlanmış, iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki və müasir istehsal sahələrinin yaradılması ilə kompleks tədğirlər hazırlanmış və həyata keçirilmişdir.

Bu dövrdə H.Əliyevin gördüyü işlər arxiv sənədlərində öz əksini tapıb. Belə ki, 1969-1982-ci illərdə keçirilən XXVIII, XXIX və XXX qurultayların, 55 plenum, 447 Büro və 101 Katiblik iclasının protokol materialları və stenoqrammaları, eləcə də çoxsaylı zona müşavirələrinin, fəallar yığıncaqlarının, müxtəlif görüş və tədbirlərin sənədləri arxivin 1 saylı fondunda toplanmışdır. Bu sənədlərin təhlili göstərir ki, 1969-1982-ci illərdə müdrik, zəngin təcrübəyə əsaslanan H.Əliyevin rəhbərliyi altında respublika iqtisadiyyatında istehsalın sürəti xeyli genişlənmiş, məhsuldarlıq yüksəlmiş, böyük uğurlar, nailiyyətlər qazanılmış, elmi-texniki tərəqqidə böyük irəliləyişlər baş vermiş, yeni, müasir istehsal sahələri yaradılmış, əhalinin maddi rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

H.Əliyevin fədakar əməyi, xüsusi təşkilatçılığı ilə iqtisadi inkişafın dinamikası Azərbaycanda keçmiş ittifaq respublikalarından xeyli yüksək olmuşdur. 1970-1982-ci illərdə Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə İttifaq respublikaları arasında öndə gedərək, daima plan və tapşırıqları vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirmişdir.

Heydər Əliyev mərkəzdəki nüfuzudan istifadə edərək respublikanın xalq təsərrüfatının inkişaf etdirilməsini təmin etmək üçün, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin aşağıdakı müvafiq qərarlarının qəbul edilməsinə nail olmuşdur: 1) 1970-ci il iyulun 23-də «Azərbaycan SSR xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında»; 2) 1970-ci il iyulun 25-də «Azərbaycan SSR kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında»; 3) 1975-ci il iyulun 9-da «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında»; 4) 1976-cı il iyulun 27-də «1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində»; 5) 1979-cu il fevralın 22-də «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında». Onu da qeyd edək ki, bu qərarların yerinə yetirilməsini təmin etmək üçün mərkəzi büdcədən Azərbaycana xeyli vəsait ayrıldı.

Beləliklə, Heydər Əliyevin çox ciddi, prinsipial iş təcrübəsi sayəsində bu qərarların yerinə yetirilməsi ilə respublika iqtisadiyyatında mövcud olan uzunmüddətli geriliyə son qoyulmasında, nöqsanların aradan qaldırılmasında, 1970-1982-ci illərdə respublika iqtisadiyyatının intensiv, dinamik inkişafında başlıca rol oynadı.

1969-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektləri istifadəyə verilmiş, 630 min nəfərlik yeni iş yerləri yaradılmışdı.

1969-1982-ci illərdə neft hasilatının, neft emalı və qazçıxarma sahələrinin inkişafında yeni mərhələ başlandı.Yeni neft yataqları aşkar edilmiş və istifadəyə verilmişdir, neft və qaz mədənlərinin 80 faizi avtomatlaşdırılmışdı. Bu illərdə Xəzər dənizinin dərin akvatoriyalarında neft və qaz yataqlarının aşkara çıxarılması üçün geoloji-kəşfiyyat işlərinin gücləndirilməsinə diqqət artırılmışdır. Arxiv sənədlərindən məlum olur ki, 1969-1972-ci illər neft və neftayırma, qaz sənayesinin əsaslı şəkildə yenidən qurulması ilə səciyyələnib (2).

Heydər Əliyev 70-80-ci illərdə neft-kimya sənayesinin inkişafını Azərbaycanın sosial-iqtisadi inkişafında başlıca amil hesab edirdi. Arxiv sənədlərinin və materiallarının təhlili göstərir ki, sözügedən illərdə kimya sənayesi məhsulları istehsalında, xüsusilə kükürd, plastik kütlə, sintetik kauçuk və digər kimyəvi vəsaitlər istehsalıda böyük nailiyyətlər əldə edilmişdi (22).

1969-1982-ci illərdə Azərbaycanın iqtisadi strukturunda keyfiyyətli dəyişiklilərə səbəb olan böyük uğurlar əldə edilmişdi. Araşdırmalar, arxivdəki faktiki və statistik materiallardan məlum olur ki, bu dövrdə respublika sənayesinin təzə sahələri olan elektrotexnika, cihazqayırma, elektron, dəzgahqayırma, avtomatlaşdırma kimi yeni istehsal sahələrinin yaradılmasına başlanılmışdır.

Arxiv sənədləri arasında Azərbaycanın bir neçə onillik əvvəl iqtisadi inkişafını təyin edən Bakı məişət kondisionerləri zavodunun tikintisi haqqında qərar vardır (4).

Tikinti-quraşdırma işləri üçün əlavə 18 milyon manat ayrılmışdı. İnkişaf etmiş xarici ölkələrdən ümumi məbləği 25 milyon manat olan kompleks avadanlıqlar, idarə avadanlıqları, sınaq yoxlama ölçü cihazları, texniki sənədləşmə və lisenziya alınıb quraşdırıldı. Bundan əlavə, mühəndis-texniki işçilərin, təcrübəli fəhlələrin ixtisaslarını artırmaları üçün xarici ölkələrə göndərilməsi, zavodun ali və orta ixtisas təhsilli mütəxəssislərlə təmin oulnması, zavodun işçiləri üçün, mənzil və mədəni-məişət obyektlərinin tikintisi kimi zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı tədbirlər görülmüşdü (5). Zavod qısa müddətdə tikilib 1975-ci ildə istifadəyə verilmişdir. Bu illərdə «Azon» və ya «Ulduz» cihazqayırma zavodları, Sumqayıt kompressor zavodu işə düşdü. Bütün bunlar sənayenin əsas fondlarını 70 faizini yeniləşdirdi və onların təchizi bir neçə dəfə artdı.

1969-1982-ci illərdə H.Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan keçmiş Sovetlər Birliyində elektrotexnika sənayesinin ən böyük və əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdir. 70-ci illərin ikinci yarısında Elektrotexnika Sənayesi Nazirliyi müəssisələrində istehsalın həcmi 2,4 dəfə artmışdır (20).

1982-ci ildə Dərin Dəniz Özülləri zavodunun tikintisi başlandı. Zavodun tikintisində 1,5 mindən çox fəhlə cəlb edilmişdir. Azərbaycan KP MK-nın 1982-ci il 12 yanvar tarixli Büro iclasında (4) obyektə yüksək səviyyəli rəhbər kadrların və mühəndis-texniki işçilərin göndərilməsi, zavodun işçiləri üçün Primorsk qəsəbəsində mənzil və ictimai obyektlərin, ATS-in tikilməsi, Qaradağ dəmiryol stansiyasının yenidən qurulması və s. haqqında qərar qəbul olundu (2). Həmin dövrdə Pirsaatda nüvə yanacağından istilik elektrostansiyalarının tikintisi planlaşdırılmışdır (21).

Heydər Əliyev Bakıda metropoliten tikintisinə də böyük diqqət yetirirdi. 1978-ci ildə «Nizami» stansiyası, 1980-ci illərin əvvəllərində isə bu qolun başqa stansiyaları – «Elmlər Akademiyası», «İnşaatçılar», «20 yanvar» və «Memar Əcəmi» stansiyaları istifadəyə verildi (26).

Bundan əlavə 1970-ci illərdə Naxçıvan Muxtar Respublikasında Arpaçay su anbarının tikintisi Muxtar Respublikanın iqtisadi həyatında mühüm rol oynadı.

Azərbaycanın paytaxt əhalisinin su ilə təchizatındakı problemləri daimi aktual olduğuna görə, 1970-ci illərin əvvəllərində H.Əliyev bu məsələni həll etməyə çalışırdı. Bakı şəhəri və Abşeron yarımadası əhalisini içməli su ilə təchizatını yaxşılaşdırılması barədə Azərbaycan KP MK-nın 1971-ci il 2 fevral tarixli Büro iclasında tikintinin ən qısa müddətdə 1971-ci ilin avqustun 1-nə tam başa çatdırılması və işə salınması haqqında qərar qəbul olunmuşdu (10).

Bu dövrdə Azərbaycanın enerji müstəqilliyi təmin olundu. Belə ki, Araz, Tərtər, Şəmkir su-elektrik stansiyaları, «Azərbaycan» DRES-i işə salındı.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə kənd təsərrüfatının dinamik inkişafı, respublikanın iqtisadiyyatında onun rolunun artması ən mühüm iqtisadi nəticələrdən biridir. Böyük meliorasiya proqrammı həyata keçirildi. Baş Mil, Abşeron, Lənkəran, Cağar-Cıbır, Şəmkir kanalları, Araz, Arpaçay, Sərsəng, Yuxarı Xanbulaqçay və b. istifadəyə verildi. Respublikada üzümçülüyün inkişafına Azərbaycan və SSRİ hökumətlərinin birgə qərarından sonra xüsusi təkan verildi. Üzüm plantasiyaları 1970-ci il dəkinldən 1985-ci ilə 2 dəfə artaraq 268 min hektara çatmışdır. Bütün bunların nəticəsində kənd təsərrüfatının ümumi məhsulunun həcmi 2,6 dəfə çoxalmışdı.

Baş verən dəyişikliklərin miqyası, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatları Azərbaycanda xalqın maddi rifahının yüksəlməsində böyük inkişafa səbəb olmuşdu. Respublikada geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilirdi. Azərbaycanın şəhərləri böyüyür, ətrafında yeni yaşayış massivləri salınırdı. 1972-ci ildə Şıxovda Xalqlar Dostluğu parkının bünövrəsi qoyulmuşdu (24) həmin il Bakıda böyük konsert mərkəzi tikilmişdir (11) – indiki H.Əliyev adına Respublika sarayı, 1974-cü ilin 6 avqust tarixli KP MK-nın iclasında (12) yeni müasir avadanlıqla təchiz olunmuş «Kommunist» nəşriyyatının qəzet kompleksinin tikintisi haqqında qərar qəbul olundu. Bu nəhəng kompleksin tikintisi üçün Mətbuat prospektində yerləşən nəşriyyat korpusundan 10 hektar torpaq sahəsi ayrıldı (3). Bunun nəticəsində Respublikada kitab çapı və mətbuata xidməti xeyli inkişaf etdi. 1976-1987-ci illərdə Azərbaycanda ilk dəfə böyük informasiya tutumlu 10 cildlik «Azərbaycan Sovet Ensiklopediyası» nəşr edildi.

Heydər Əliyev respublikada elmin inkişafına və təhsil səviyyəsinin qaldırılmasına böyük diqqət yetirirdi. Azərbaycanda onlarla yeni elmi tədqiqat müəssisələri yarandı. 1975-ci ildə Elmlər Akademiyasının nəzdində «Xəzər» Elmi Mərkəzi fəaliyyətə başladı. 1978-ci ildə mərkəzin əsasında Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutu təşkil edildi. Bu barədə Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin 25 mart 1978-ci il tarixli birinci eksperimental kosmik sistemli araşdırmalar sahəsində Təbii mənbələrin, kosmik və radiofizika cihazqayırmanın mikro və radioelektronikada texnikanın müasir nailiyyətlərinin tətbiqi haqqında qərar qəbul olundu (27).

1975-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın 18 iyun 1975-ci il tarixli Büro iclasında (8) Bakıda İnşaat –Mühəndislər İnstitunun yaradılması haqqında qərar qəbul olundu (15). 1979-cu ildə Azərbaycan Kardiologiya elmi-tədqiqat institutu yaradıldı və Azərbaycan KP MK-nın 25 sentyabr 1979-cu il tarixli Büro iclasında (4) 5 №-li şəhər kliniki xəstəxanasının kardioloji korpusunda elmi-tədqiqat institunun yerləşdirilməsi qərara alındı və

500 çarpayılıq kardioloji xəstəxananın tikilməsi bildirildi (16). 1974-cü ildə Azərbaycan KP MK-nın qərarı ilə (28) Bakı şəhərində Zaqafqaziya respublikaları üçün neyrocərrahiyyə mərkəzinin təşkil olunması haqqında qərar qəbul olundu.

Heydər Əliyev milli hərbi kadrlar yetişdirilməsi sahəsində böyük işlər görmüşdü. 1971-ci ildə H.Əliyevin təşəbbüsü ilə C.Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış hərbi təmayüllü internat məktəbi təşkil olundu. 1976-cı ildə hərbi məktəbin fəaliyyətini yaxşılaşdırmaq məqsədi ilə Azərbaycanın KP MK-nın və Nazirlər Şurasının qərarı ilə tədbirlər görülmüşdü (17).

Heydər Əliyev faşizmə qarşı mübarizədə Azərbaycan xalqının oynadığı rolun düzgün qiymətləndirilməsinə çalışırdı. 1979-cu ildə Rostov vilayətində 416-cı Azərbaycan qvardiya Taqanroq diviziyasının şərəfinə hərbi şöhrətli monumental abidə kompleksi ucaldıldı (6). Bakıda isə isə Mehdi Hüseynzadənin heykəli ucaldı (13 mart 1973-cü il).

70-ci illərdə DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət artırılmışdı. Bu dövrdə Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul edildi. 1973-cü ildə Xankəndində (o zamankı Stepanakert) Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı. 1979-cu ildə Ağdam-Xankəndi dəmir yolu çəkildi. 1980-1981-ci illərdə Şuşada Molla Pənah Vaqifin qəbri üzərində türbə ucaldıldı. Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri açıldı, Natavanın heykəli qoyuldu. Şuşa ümummittifaq səviyyəli kurort şəhərinə çevrildi. Heydər Əliyevin rəhbərliyi dövründə erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977-ci ilin noyabrında onların Dağlıq Qarabağ məsələsini növbəti dəfə qaldırmaq cəhdinin qarşısı qətiyyətlə alındı. Bu dövrdə Azərbaycan xalqının mənəvi dəyərlərinə böyük diqqət yetirilirdi. Nizami Gəncəvi, Əcəmi, Nəsimi, Tusi, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Hüseyn Cavid və başqa görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri, Azərbaycan irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul olundu və bu sahədə səmərəli işlər görüldü.

Hüseyn Cavid şəxsiyyət kimi Heydər Əliyevin həmişə diqqət mərkəzində idi. Şair dramaturqun 90 illiyi ilə əlaqədar olaraq Azərbaycan KP MK-nın 13 fevral 1974-cü il tarixli Büro iclasında (19), təntənəli yubiley ərəfəsində bir sıra tədbirlərin həyata keçirilməsi göstərilirdi. Respublika səviyyəsində Hüseyn Cavidin yaradıcılıq gecəsinin keçirilməsi, onun haqqında məlumatların nəşri, şairin seçilmiş əsərlər toplusunun nəşr olunması, yubiley çərçivəsində Elmlər Akademiyasında elmi sessiya keçirilməsi və Hüseyn Cavidin seçilmiş əsərlərinin rus dilində nəşr olunması haqqında qərar qəbul olundu (30). Bir neçə il sonra, şairin 100 illik yubiley ərəfəsində, Heydər Əliyevin böyük səyləri nəticəsində 1937-ci ildə «pantürkist» kimi repressiya olunmuş böyük Azərbaycan şairinin cənazəsi tapılmış, Qərbi Sibirdən Azərbaycana gətirilmiş və vətəndə dəfn olunmuşdur. Şairin 100 illik yubileyin qeyd olunan dövrdə Bakıda 1920-1937-ci illərdə yaşadığı və işlədiyi mənzildə H.Cavidin ev-muzeyi (7), doğma yurdu Naxçıvanda isə onun memorial ev-muzeyi açılmışdır (21).

Arxiv sənədləri arasında görkəmli ədəbiyyat və incəsənət xadimlərinə fəxri adlar verilməsi, mükafat və b. təltiflər olunması haqqında çoxsaylı materiallar var. Belə ki, Sabit Rəhmana (1970, 27 yanvar), Süleyman Rəhimova (1972, 17 mart), Müslüm Maqomayevə (1972, 24 may), Tahir Salahova (1972, 24 noyabr), Mehdi Məmmədova (1974, 19 mart), İsmayıl Osmanlıya (1974, 19 mart), Zeynəb Xanlarovaya (1975, 17 mart), Mikayıl Hüseynova (1975, 31 may), Rəşid Behbudova (1975, 11 noyabr), Süleyman Rüstəmə (1976, 10 fevral), Mir Cəlal Paşayevə (1978, 25 mart) bu dövrdə fəxri adlar verilmişdir. 1970-ci ildə Səməd Vurğun adı-

Tarix və onun problemləri, №2 2013

na Azərbaycan Dövlət rus dram teatrının 50 illik yubileyi Mirzə İbrahimovun 60 illiyi (1971, 7 sentyabr) görkəmli kompozitor və dirijor Niyazi Tağızadənin 60 illik yubileyləri keçirilmişdi.

Heydər Əliyev Azərbaycan gənclərinin əqidəsinə və vətənpərvərlik ruhunda tərbiyə olunmasına daha çox diqqət yetirirdi. Bununla əlaqədar 1979-cu ildə geniş formatlı, iki seriyalı «Babək» bədii filminin yaradılması üçün lazımi vəsait ayrılmışdır (14). H.Əliyev Azərbaycanı tək SSRİ miqyasında yox, bütün dünya miyqasında tanıtması yolunda böyük işlər görmüşdü, Azərbaycanın xarici əlaqələrini genişləndirmişdi.

1970-ci il dekabr ayının əvvəlində, İran Şahının xanımı Fərəh Pəhləvi öz anası Fəridə Diba ilə Bakıya gəldi və yüksək səviyyədə görüş təşkil olundu (4). 1975-ci il avqustun axırında Pakistanın baş nazirinin həyat yoldaşı Nüsrət Bxuttonun başçılığı ilə hökumət nümayəndəliyi Bakıya gəldi (19). 1980-ci ilin əvvəlində Fransa Milli məclisinin sədri Jak Şaban Delmasinin başçılığı ilə Fransa hökumət nümayəndəliyi sovet və Fransa KİV nümayəndələrinin müşayiəti ilə Bakıya gəldi (6). Heydər Əliyev Azərbaycanın 1976-cı ildə Hindistanda, 1977-ci ildə Parisdə, 1978-ci ildə Finlandiyada beynəlxalq sərgidə müstəqil bölmə ilə iştirak etməsinə nail oldu (12). 1978-ci ilin oktyabrında Böyük Britaniyada SSRİ günlərini Azərbaycan təmsil edirdi. Azərbaycan nümayəndəliyinə Azərbaycan SSR təhsil naziri, SSRİ-nin MEA-nın müxbir üzvü M.C.Cavadzadə başçılıq edirdi. Bu nümayəndəliyin tərkibinə SSRİ xalq artisti R.Behbudov öz mahnı solistləri ilə respublikanın başqa elm və incəsənət xadimləri daxil idi (14). 1981-ci ilin dekabr ayında Parisdə «Azərbaycan xalçaçılıq sənəti» sərgisi keçirildi (16). 1979-cu ilin payızında Azərbaycanda Bakı ilə qardaşlaşmış şəhər – Sarayevanın günləri keçirildi (15). 1974-cü ilin 12-20 aprelində Bakıda 7-ci Ümumittifaq kinofestivalı (16), 1976-cı ilin may ayının 13-15-də Bakıda keçirilmiş IV sovet Asiya və Afrika xalqlarının həmrəylik konfransının işində 200 sovet nümayəndəsi, 25 nəfər Asiya və Afrika ölkələrindən və 15 nümayəndə sosialist ölkələrindən iştirak edirdi. Konfrasda Heydər Əliyev təbrik nitqi ilə çıxış etdi (18). 1978-ci ilin 2-11 sentyabrda Bakıda Asiya ölkələrinin müasir problemləri üzrə Sovet-ABŞ simpoziumu keçirildi. ABŞ tərəfindən simpoziuma Kolumbiya və Stenford nüfuzlu Amerika universitetlərindən görkəmli alimlər iştirak edirdilər (31).

XX əsrin 70-80-ci illəri Azərbaycan tarixində yüksəliş dövrü kimi səciyyələndirilir. Bu nailiyyətlər o vaxt hakimiyyətdə olan H.Əliyevin rəhbərliyi və prinsipiallığı nəticəsində olmuşdur.

## ƏDƏBIYYAT

1.Azərbaycan Respublikasının Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 56, iş 9, v.161.
2.ARPİİSSA F.1, siy.16, iş 83, v.13; f.1, siy.56, iş 9, v.21-22.
3.ARPİİSSA F.1, siy.406, iş 106, v.14; f.1, siy.412, iş 29, v.12-13.
4.Azərbaycan KPMK Büro iclasının 13 oktyabr 1972-ci il qərarı, protokol -51, 2-ci bənd.
5.ARPİİSSA F.1, siy.59, iş 85, v.27.
6.ARPİİSSA F.1, siy.70, iş 22, v.35.
7.Azərbaycan KPMK Büro iclasının 6 may1977-ci il qərarı, protokol -36, 11-ci bənd, f.1, siy.64, iş37.
8.ARPİİSSA F.1, siy.59, iş 36; siy.59, iş 30.
9.ARPİİSSA F.1, siy.59, iş 57, protokol -59, 5-ci bənd.
10.ARPİİSSA F.1, siy.59, iş 94.
11.ARPİİSSA F.1, siy.59, iş 94, protokol -100, 13-cü bənd.

**Tarix və onun problemləri, №2 2013**

12.ARPİİSSA F.1, siy.61, iş 62.
13.ARPİİSSA F.1, siy.65, iş 45, protokol -125, 3-cü bənd.
14.ARPİİSSA F.1, siy.62, iş 56, protokol -115, 2-ci bənd.
15.ARPİİSSA F.1, siy.66, iş 90.
16.Azərbaycan KPMK Büro iclasının 20 aprel, 1976-ci il qərarı, protokol-5, 10-cu bənd.
17.ARPİİSSA F.1, siy.66, iş 40.
18.Azərbaycan KPMK Büro iclasının 13 fevral, 1974-ci il qərarı, protokol-87, 14-cu bənd.
19.ARPİİSSA F.1, siy.61, iş 23.
20.ARPİİSSA F.1, siy.68, iş 96. Azərbaycan KPMK Büro iclasının 11 dekabr , 1980-ci il qərarı, f.1, siy.67, iş 127.
21.ARPİİSSA F.1, siy.68, iş 51.
22.Azərbaycan KPMK Büro iclasının 4 dekabr, 1970-ci il qərarı, f.1, siy.57, iş 104.
23.Azərbaycan KPMK Büro iclasının 26 avqust, 1975-ci il qərarı, f.1, siy.62, iş 78.
24.ARPİİSSA F.1, siy.68, iş 51.
25.ARPİİSSA F.1, siy.60, iş 77.
26.ARPİİSSA F.1, siy.65, iş 100.
27.ARPİİSSA F.1, siy.68, iş 51.
28.ARPİİSSA F.1, siy.66, iş 90.
29.ARPİİSSA F.1, siy.60, iş 97.
30.ARPİİSSA F.1, siy.63, iş 34.
31.ARPİİSSA F.1, siy.56, iş 91.

**ИБРАГИМ ЗЕЙНАЛОВ**
*профессор Бакинского Государственного Университета,*
*доктор исторических наук*

## ДЕЯТЕЛЬНОСТЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА Г.АЛИЕВА В ОБЛАСТИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО И КУЛЬТУРНОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА В АРХИВНЫХ ДОКУМЕНТАХ

70-е годы XX века важный период истории Азербайджана характеризующиеся специфическими качествами социально-политического и культурно-экономического развития. Под мудрым руководством Г.Алиева проведением им детально разработанных мероприятии в 1969-1982-х гг. этот период считается этапом возрождения Азербайджана.

В этом контексте важное значение имеет решения пленума ЦК АКП от 5 августа 1969 года, так как имеет программное значение в осуществлении прогресса во всех сферах жизни республики. Здесь Г.Алиев дает характеристику предшествующего этапа и причины кризиса охватившего социально-экономическую жизнь республики, указывает путей выхода из создавшейся ситуации. Именно, на основе этого документа были предпринята меры, ставшие переломным моментом от регресса к прогрессу. Был основан фундамент возрождения азербайджанского общества, его стремления к прогрессу, национальному самосознанию, были заложены социально-экономические основы возрождения национальной государственности в 1991 г.

**Tarix və onun problemləri, №2 2013**

**İBRAHİM ZEYNALOV**
***professor of Baku State Universitety,***
***doctor of historical sciences***

## NATION – WIDE LEADER HEYDER ALIYEVS ACTIVITY ON SOCIAL, ECONOMICAL AND CULTURAL DEVELOPMENT IN THE YEARS OF 1969 – 1982 IN AZERBAIJAN ON THE BASIS OF ARCHIVES DOCUMENTS

The 70th of XX century is a historical period with specific features in public, political, social, economical and cultural development of Azerbaijan. Thanks to our nation – wide Leader Heydar Aliyevs wise leadership, planned measures realized by him in the years of 1969 -1982 are characterized as renascence period.

In this honorable history in the years of 1969-1982 progress gained in all spheres and Plenium of Azerbaijan CC of CP dated August 5 had great importance. As it was programme document it had great importance. In this programme document nation – wide Leader gave the analyses of backwardness, declaim and crisis of social and economical life of Azerbaijan, gave their reasons and ways out of these problems. And according to this programme document some measures were taken and as a result of them Azerbaijan began to make progress in all spheres.

Revival, development, national seltconsideration were the first steps in Azerbaijan. In the years of 1969 – 1982 in public and political,economical and cultural life of Azerbaijan the period of renessance began. And beginning from 1991 the social and economical bases of our independent began.

*Rəyçilər: t.e.n.A.Ə.Rzayev, t.e.d.R.C.Süleymanov*
*Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının 14 mart 2013-cü il tarixli qərarı ilə çapa məsləhər görülmüşdür (protokol№2).*